Salam, Əziz qonşu Sofya,

İlk olaraq, məktubun üçün təşəkkür edirəm. Mənim adım Ləmandır. Sizə Bakıdan yazıram. Özüm jurnalistika ixtisası üzrə təhsil alan tələbəyəm.

Siz və sizin kimi sülhün, ədalətin tərəfdarı olan digər gənclərin məktubunu böyük həvəslə oxudum. Müəyyən özünəməxsus xüsusiyyətlərin var ki, mənimlə eynidir demək olar ki və məktubda qeyd etdiyin bütün fikirlərlə razıyam.

Sizin heç tanımadığınız, bəlkə də heç vaxt qarşılaşmaq qismət olmayacaq bir insana necə həvəs ilə, necə həyəcanla bu məktubu yazmağınız məndə həqiqətən sülh hisslərini oyandırdı və məni ürəkdən sevindirdi.

Sizin də qeyd etdiyiniz kimi bu həyatda əmin – amanlıq, qurub – yaratmaq, dinclik, mədəni inkişaf üçün qarşımızda bir məqsəd var. Bir ideya ətrafında bərqərar olub, sülhə nail olmaq lazımdır. Dünyada sülhün, əmin–amanlığın, ədalətin bərqərar olunması, təhlükəsizliyin təmin edilməsi hər bir sülhsevər xalqın, bütün insanların, xüsusilə uşaqların arzusudur. Ədalətli cəmiyyət axtarışı, insanlar üçün əbədi sülh ideyası insan əqlini narahat edən, onu daim düşünməyə vadar edən ən ümdə problemlərdən biri olub.

Sülh – həyat, yaşamaq, sağlam nəsillər deməkdir. Azadlıq, bərabərlik və ədalətlə yanaşı, sülh hər bir cəmiyyətin, ümumiyyətlə bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Bütün bunların toplumu ayrı–ayrı ölkələrdə, dünyada, davamlı inkişaf, qarşılıqlı əməkdaşlıq deməkdir.

Mən müharibə istəmirəm və mən bilirəm ki, mənim kimi neçə Azərbaycanlı və Erməni gənc müharibəni istəmir, bizlər ortaq mövqe tapılmasını, yenidən bərabər şəkildə yaşamağı istəyirik.
Mən bir Azərbaycan vətəndaşı kimi, Gürcüstana gedə bildiyim kimi, Ermənistana getmək, oraları gəzmək istəyirəm.

Mən hər iki ölkənin insanlarının bərabər mühitdə yaşadığı bir Qafqaz istəyirəm.

Səmimi qəlblə,

Ləman